History of Science
Vol 7, issue 2, serial 25, 2026, pp.200-215

AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# "THE GREAT GAME" AND IRAN (SECOND HALF OF THE 19th AND EARLY 20th CENTURY)

**Farah Karimova**[1]

**UDC:** 94(55)"185/191":327(470+410)
**LBC:** 63.3(5Irn)5:66.4(0)
**HoS:** 166
**doi:** 10.33864/2790-0037.2026.v7.i2.200-215

**Keywords:**

"The Great Game", Naser ad-din Shah Gajar, A consession, Baron Paul Julius von Reuter, "the Cossack brigade", The Anglo-Russian convention of 1907

**Subject area:**

Humanitarian Sciences

**Research field:**

Political History

## ABSTRACT

Iran, In the second half of the 19th century and the early 20th century, under the rule of the Qajar dynasty, was an economically underdeveloped agrarian country in which feudal relations dominated. The central government and state institutions were weak. The British and Russian Empires exercised strong economic and political influence over the Iranian government. Iran's strategic geographical position turned it into one of the main arenas of the geopolitical rivalry between these two empires - known as the "Great Game." Foreign intervention, diplomatic pressure, and economic concessions obtained from the shah's government, significantly limited the country's sovereignty.

The article analyzes the main directions, geographical arena, and mechanisms of the "Great Game" in the second half of the 19th century, as well as Iran's position and role in this rivalry. It also examines the issues such as the country's internal socio-economic situation, financial dependence, political and administrative weakness, and the growing influence of foreign capital within the framework of the "Great Game." The author further explores the mechanisms used by Britain and Russia to expand their spheres of influence and gain strategic and economic advantages in Iran, and provides information on the 1907 Anglo-Russian Agreement - considered the end of the "Great Game"—and its consequences for both Iran and the international relations system.

---

[1] Junior researcher,
The Department of History and Economy of Iran, ANAS The Institute of Oriental Studies named after academician Z.M.Buniatov; Baku, Azerbaijan
E-mail: m_fereh@mail.ru
https://orcid.org/0009-0005-8207-7785

**To cite this article:** Karimova, F. [2026]. "The Great Game" and Iran (Second Half of the 19th and Early 20th Century). *History of Science journal*, *7*(2), pp.200-215.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i2.200-215

***Article history:***
*Received: 2 March 2026*
*Revised: 6 April 2026*
*Accepted: 1 June 2026*
*Published: 15 June 2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# "BÖYÜK OYUN" VƏ İRAN (XIX ƏSRİN II YARISI - XX ƏSRİN ƏVVƏLİ)

**Fərəh Kərimova**[1]

**UOT:** 94(55)"185/191":327(470+410)
**KBT:** 63.3(5İrn)5:66.4(0)
**HoS:** 166
**doi:** 10.33864/2790-0037.2026.v7.i2.200-215

**Açar sözlər:**

Böyük Oyun", Nəsrəddin şah Qacar, Konsessiya, Baron Paul Yulius fon Reyter, "Kazak briqadası", 1907-ci il ingilis-rus sazişi

**Sahə:**

Humanitar elmlər

**Tədqiqat sahəsi:**

Siyasi Tarix

## ANNOTASİYA

XIX əsrin ikinci yarısı - XX əsrin əvvəllərində Qacar sülaləsinin hakimiyyəti altında olan İran iqtisadi cəhətdən geri qalmış, feodal münasibətlərinin üstünlük təşkil etdiyi aqrar ölkə idi. Ölkədə mərkəzi hakimiyyət və dövlət strukturlarının fəaliyyəti zəif idi, Böyük Britaniya və Rusiya imperiyası İran hökuməti üzərində güclü iqtisadi və siyasi təsirə malik idi. İranın strateji-coğrafi mövqeyi onu bu iki imperiya arasında gedən geosiyasi rəqabətin – "Böyük oyun"un əsas meydanlarından birinə çevirmiş, ölkəyə qarşı müdaxilə və diplomatik təzyiqlər, şah hökumətindən əldə edilən iqtisadi imtiyazlar dövlət suverenliyini əhəmiyyətli dərəcədə məhdudlaşdırmışdır.

Məqalədə "Böyük oyun"un XIX əsrin II yarısında əsas istiqamətləri, aparıldığı coğrafi məkan və həyata keçirilmə mexanizmləri, İranın bəhs edilən dövrdə bu rəqabətdə tutduğu yer və oynadığı rol təhlil edilmiş, həmin dövrdə daxili sosial-iqtisadi vəziyyəti, maliyyə asılılığı, siyasi-inzibati zəifliyi və xarici kapitalın artan nüfuzu kimi məsələlər "Böyük Oyun" — kontekstində araşdırılmışdır. Müəllif Britaniya və Rusiyanın bu ölkədə öz təsir dairəsini genişləndirmək və strateji-iqtisadi üstünlük əldə etmək üçün istifadə etdikləri mexanizmləri təhlil edərək, "Böyük oyun"un sonu hesab edilən 1907-ci il rus-ingilis sazişi və onun həm İran üçün, həm də beynəlxalq münasibətlər sistemi üçün nəticələri haqqında məlumat vermişdir.

[1] Kiçik elmi işçisi,
İran tarixi və iqtisadiyyatı şöbəsinin, AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu; Bakı, Azərbaycan
E-mail: m_fereh@mail.ru
https://orcid.org/0009-0005-8207-7785
**Məqaləyə istinad:** Kərimova, F. [2026]. "Böyük Oyun" və İran (XIX Əsrin II Yarısı - XX Əsrin Əvvəli). *History of Science jurnalı*, 7(2), səh.200-215.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i2.200-215

***Məqalənin tarixçəsi:***
*Daxil olub: 02.03.2026*
*Yenidən baxılıb: 06.04.2026*
*Təsdiqlənib: 01.06.2026*
*Dərc olunub: 15.06.2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# «БОЛЬШАЯ ИГРА» И ИРАН (ВТОРАЯ ПОЛОВИНА XIX И НАЧАЛО XX ВЕКА)

**Фарах Керимова**[1]

**УДК:** 94(55)“185/191”:327(470+410)
**ББК:** 63.3(5Ирн)5:66.4(0)
**HoS:** 166
**doi:** 10.33864/2790-0037.2026.v7.i2.200-215

**Ключевые слова:**

«Большая игра»,
Насер ад-Дин Шах Каджар,
Концессия
Барон Пол Юлиус фон Рейтер,
«Казачья дивизия»,
Англо-русское соглашение 1907 года

**Область исследования:**

Гуманитарные науки

**Научная область:**

Политическая история

## АННОТАЦИЯ

Во второй половине XIX века — начале XX века Иран под властью династии Каджаров представлял собой экономически отсталую аграрную страну, в которой преобладали феодальные отношения. Центральная власть и государственные институты были слабыми, в то время как Британская и Российская империи оказывали сильное экономическое и политическое влияние на иранское правительство. Стратегическое географическое положение Ирана превратило его в одну из основных арен геополитического соперничества между этими двумя империями, известного как «Большая игра». Иностранное вмешательство, дипломатическое давление и экономические уступки, полученные от шахского правительства, существенно ограничивали суверенитет страны.

В статье анализируются основные направления, географические рамки и механизмы «Большой игры» во второй половине XIX века, а также место и роль Ирана в этом соперничестве. Рассматриваются такие вопросы, как внутренняя социально-экономическая ситуация страны, финансовая зависимость, политико-административная слабость и растущее влияние иностранного капитала в контексте «Большой игры». Автор также исследует механизмы, используемые Великобританией и Россией для расширения сфер своего влияния и достижения стратегических и экономических преимуществ в Иране, а также приводит информацию об англо-русском соглашении 1907 года, которое считается завершением «Большой игры», и его последствиях как для Ирана, так и для системы международных отношений.

[1] Младший научный сотрудник,
Отдел истории и экономики Ирана, Институт востоковедения НАН Азербайджана имени акад. Зия Буниятова; Баку, Азербайджан
E-mail: m_fereh@mail.ru
https://orcid.org/0009-0005-8207-7785

**Цитировать статью:** Керимова, Ф. [2026]. «Большая игра» и Иран (вторая половина XIX и начало XX века). *Журнал History of Science*, *7*(2), с.200-215.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i2.200-215

***История статьи:***
*Поступила: 02.03.2026*
*Переработана: 06.04.2026*
*Принята: 01.06.2026*
*Опубликована: 15.06.2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

### *1.1.XIX əsrin II yarısında "Böyük oyun"un mahiyyəti və siyasi meydanı*

XIX əsrin II yarısı dünyanın siyasi və sosial-iqtisadi tarixində bir sıra yeni və mühüm dəyişikliklərin baş verdiyi dövrdür. Bu dövrdə Avropada sənaye inqilabları baş vermiş, fabrik-zavod istehsalı, fəhlə və burjuaziya sinifləri formalaşmış, ilkin sosial hərəkatlar və liberalizm ideaları yayılmağa başlamış, millətçilik və yeni imperializm ideyaları geniş vüsət almışdır. Xüsusilə 1870-ci illərin ortalarında qlobal resurslar bölgüsü, güc balansı dəyişdi; 1867-ci ildə Avstriya-Macarıstan imperiyasının yaranması, 1869-1870-ci illərdə İtaliyanın, 1871-ci ildə "dəmir kansler" Otto fon Bismarkın başçılığı ilə Almaniyanın birləşdirilməsi ilə yeni qüvvələr balansı formalaşmışdır.

XIX əsrin ikinci yarısından etibarən inkişaf etmiş Avropa dövlətləri, həm geostrateji və qlobal miqyasda siyasi-iqtisadi maraqların təmin edilməsi, həm də yeni xammal və satış bazarları uğrunda mübarizəyə başladılar. Müvafiq satış bazarları şərq ölkələri, ilk növbədə, İran və Osmanlı imperiyasının ərazisi, mübarizənin əsas subyektləri isə Böyük Britaniya və Rusiya imperiyaları idi. Hələ əsrin əvvəllərindən başlayan və elmi-publisistik ədəbiyyatda "Böyük oyun" adlandırılan ingilis-rus rəqabəti XIX əsrin ortalarından daha geniş miqyasda və qızğın formada davam etməyə başladı. İmperializm tarixində mühüm epizod olan "Böyük oyun"un əvvəlki gedişatında olduğu kimi bu dövrdə də ingilislərin əsas məqsədi Britaniya Hindistanına qarşı bütün mümkün təhdidlərdən qorunmaq və "imperiyanın incisi"nin təhlükəsizliyinin təmin etmək, bu yolda mühüm rol oynayan Qafqaz və Orta Asiyada, İran və Əfqanıstanda möhkəmlənmək idi. Rusiya isə bu dövrdə artıq Cənubi Qafqazın işğalını başa çatdırmış və İran ərazisi vasitəsilə cənuba-Hind okeanı sahillərinə çıxış əldə etmək, qərbə doğru - Mərkəzi Asiya xanlıqları hesabına ərazisini genişləndirmək siyasəti yeridirdi.

Əsrin ikinci yarısından başlayaraq Böyük Britaniya kraliça Viktoriyanın (1838-1901) başçılığı ilə həm siyasi, həm iqtisadi inkişafının yüksək pilləsinə çatmış, "Viktorian epoxası" adlanan bu dövrdə böyük beynəlxalq gücə çevrilmişdir. XIX əsrin 50-ci illərində onun Yaxın Şərq regionu ilə bağlı ekspansiv planları da fəallaşmış və əsas məqsəd İran, Əfqanıstan və Orta Asiya bazarlarına yiyələnmək, eyni zamanda bu region dövlətləri üzərində hegemonluğa nail olmaq idi.

İngiltərəli tarixçi E.İnqrama görə "Böyük oyun" 1830-cu ildə Hindistana Nəzarət Şurası (Hindistana Nəzarət Şurası Britaniya imperialist hökuməti tərəfindən 1784-cü ildə Şərqi Hindistan (Ost-Hind) şirkətinin fəaliyyəti üzərində nəzarəti həyata keçirmək məqsədilə yaradılmışdır) Prezidenti Lord Elinboronun general-qubernator Lord Vilyam Bentinkə (1834-1835-ci illərdə ilk Hindistan general-qubernatoru) Hindistandan Buxaraya yeni ticarət yolunun açılması haqqında göstəriş verməsi ilə başlamış, onun aparılma yolları, çatmaq üçün qarşıya qoyulan məqsədlər isə 1830-1834-cü illərdə Hindistana Nəzarət Şurasının üzvü kimi fəaliyyətdə olan Ser Henri Ellis tərəfindən işlənib hazırlanmışdır [İnqram, 1980, s.160]. O qeyd edir ki, İngiltərə üçün "Böyük oyun" Şərqə doğru irəliləmək yolunda mühüm addım idi; XVIII əsrin ortalarınadək dəniz ağalığı İngiltərə üçün həyati əhəmiyyət daşıyan amil idi, xüsusilə 1763-cü ildə 7 illik müharibənin Britaniyanın qələbəsi ilə başa çatmasından və Britaniyanın dövrünün ən qüdrətli dəniz dövlətinə çevrilməsindən sonra Britaniya əlverişli quru yolları axtarışına başladı. Çünki onlar fransızları Hindistandan və Şimali Amerikadakı bir sıra müstəmləkələrindən çıxarmağa nail olmuş, Asiya ticarətinə yol tapmışdılar. XVIII əsrin sonlarınadək Avropa və Şimali Amerika Britaniya üçün mühüm investiya qoyuluşu və satış bazarı idisə, XIX əsrin əvvəllərindən vəziyyət dəyişdi; Britaniya gələcəyini Asiyada görməyə başladı. Şərqə doğru yönəlmənin ən böyük təzahürü isə Hindistanın fəthi oldu. Artıq bütün vasitələrlə Hindistanın təhlükəsizliyin təmin etmək Böyük Britaniya üçün həyati əhəmiyyət kəsb etməyə başladı [İnqram, 1980, s.161].

E.İnqrama görə Britaniya məqsədinə nail olmaq üçün Asiyada bufer dövlətlər yaratmağa çalışırdı ki, bu dövlətlər Türkiyə, İran, Buxara və Xivə xanlığı olmalı idi. Bufer dövlətlər fonunda isə başqa bir zona yaradılmalı idi ki, bu, Fars körfəzindən başlayaraq, Sind və Pəncab vasitəsilə Hind çayı boyu Əfqanıstana qədər uzanacaqdı. Fərat çayında dayanacaq Britaniya gəmiləri (İngiltərə XIX əsrin əvvəllərində Hindistanla sürətli poçt və ticarət əlaqəsini təmin etmək üçün bu çaylarda buxarla işləyən bir neçə gəmi saxlayırdı, bunlardan “Dəclə” adlı gəmi batmış, “Fərat” adlı gəmi vasitəsilə naviqasiya məsələlərinə nəzarət edilirdi) isə bu ərazilərdə ticarət əməliyyatlarının təhlükəsiliyinə nəzarət etməli idi [İnqram, 1980, s.165]. Sonradan Mərkəzi Asiya torpaqlarının Rusiya tərəfindən işğalı Britaniyanın bu planlarını reallaşdırmasına imkan vermədi.

XIX əsrin II yarısında və XX əsrin əvvəllərində “xroniki kapital çatışmazlığı” yaşayan Rusiya imperiyası xaricdən kapital axınına ehtiyac duyurdu. Eyni zamanda xarici iqisadi əlaqələri inkişaf etdirmək üçün imkanları məhdud olan Rusiya İran bazarlarını bu ehtiyacı ödəmək üçün mühüm mənbə kimi görürdü. Avropa ölkələrindən tək iqtisadi deyil, hərbi-texniki sahədə də gerilik, onun 1853-1856-cı illərdə Krım müharibəsində məğlubiyyətini şərtləndirən amillərdən oldu və bu məğlubiyyətin nəticəsi olaraq beynəlxalq imici zəiflədi və “Avropa işlərindən” geri çəkildi. Bundan sonrakı dövrdə - XIX əsrin II yarısında Rusiya imperiyası diqqətini Avropa gücləri ilə daha rahat rəqabət apara biləcəyi Mərkəzi və Şərqi Asiyaya doğru yönəltdi [Andreyeva, 2007, s.18].

Beləliklə, XIX əsrin II yarısında intensiv xarakter alan “Böyük oyun” - ingilis-rus rəqabəti Rusiya tərəfindən Mərkəzi Asiya torpaqlarına, daha uzaq perspektivdə isə “Hindistanı fəth etməkdən də daha möhtəşəm xəyallarını gerçəkləşdirmək - geniş ehtiyatları və bazarları olan bütün Uzaq Şərqi digər yırtıcıların əlinə keçməzdən əvvəl Rusiyaya açmaq və buranı onun Hindistanına çevirmək – hansı ki, bu, Rusiya imperiyasının iqtisadi və hərbi qüdrətini əhəmiyyətli dərəcədə artıracaqdı [Hopkirk, 2004, s.251], - uğrunda aparılırdı.

Ümumiyyətlə, Y.Serqeyev “Böyük oyun”un aparılma arenasını 3 yerə bölür:

1. *Dövlətçilik tarixi qədim dövrlərə gedib çıxan böyük Asiya despotizmləri – İran, Əfqanıstan, Buxara, Xivə, Kokand xanlıqlarının ərazisi.* Bu ərazilər nisbətən güclü mərkəzi hakimiyyətə, qədim idarəçilik təcrübəsinə və strateji-coğrafi əhəmiyyətə malik idi. “Böyük oyun” burada daha çox diplomatik və hərbi-siyasi manevrlər şəklində gedirdi.

2. *İrandan Tibetə qədər zolaqda yerləşən, bir vaxtlar Asiya imperiyalarının bir hissəsi olan, onların süqutundan sonra daha böyük imperiyaların vassal asılılığını qəbul edən, faktiki olaraq “heç kimin torpağı” olmayan kiçik əmirliklər və xanlıqların ərazisi* (Mancuriya, Tibet, Pamir). Bunlar əvvəllər Monqol və Çin kimi böyük Asiya imperiyalarının bir hissəsi olmuş, sonra isə ya zəifləyərək, ya da daha böyük imperiyaların (Rusiya, Britaniya, Çin) vassal asılılığına düşmüş, lakin faktiki olaraq nəzarətsiz və ya yarı-müstəqil qalmış, “bufer” rolu oynayan ərazilər idi.

3. *Döyüşkən türkmən, əfqan, sind tayfaları, Hindistanın şimalı, Şərqi Türküstan xalqlarının yaşadığı, keçilməsi çətin olan dağlıq ərazilər* [Serqeyev, 2012, s.22-23]. Burada oyun daha çox kəşfiyyatçılar, səyahətçilər və yerli tayfalarla mürəkkəb münasibətlər vasitəsilə aparılırdı. Bu ərazilər üzərində nəzarət təmin etmək çətin idi, çünki coğrafi cəhətdən keçilməz idi və əhalisi də xaricilərə qarşı müqavimət göstərirdi.

Beləliklə, Serqeyevin bölgüsündən belə qənaətə gəlmək olar ki, Rusiya və Britaniya imperiyalarının Şərqi və Mərkəzi Asiyada rəqabəti fərqli ərazilərdə fərqli qaydalar və üsullarla: birinci zonaya aid olan ərazilərdə klassik diplomatik və dövlətlərarası rəqabət şəklində idisə, ikinci zonada daha çox “boşluqları doldurma”, üçüncü zonada isə kəşfiyyat və yerli idarəçilərlə işbirliyi şəklində gedirdi.

## 2.İran “Böyük oyun”da

XIX əsrin II yarısında „Böyük oyun“da İranla bağlı hadisələr daha çox iqtisadi müstəvidə baş verirdi. Belə ki, hələ əsrin əvvəllərində Rusiya ilə aparılan müharibələr və Qafqazda böyük ərazilərin itirilməsi, Britaniya ilə Herat müharibələrindəki (1838-1841; 1857-1861) məğlubiyyət və Əfqanıstan üzərində siyasi təsirin itirilməsi, Britaniya donanmasının İran körfəzində üstünlük qazanması İranın sosial-iqtisadi və siyasi vəziyyətinin daha da pisləşməsinə və ölkədə Rusiya və Britaniyanın siyasi təsirinin güclənməsinə şərait yaratmışdı. İranın iqtisadi asılılığı yüksək həddə idi; ölkədə istehsal olan yerli məhsullar aşağı gömrük rüsumları ilə ölkəyə gətirilən ucuz qiymətli, lakin daha keyfiyyətli ingilis və rus malları ilə rəqabətə davamlı deyildi. Bu da nəticə etibarilə iranlı tacir və sənətkarların müflisləşməsinə, manufakturala və fabriklərin bağlanmasına, sosial-iqtisadi vəziyyətin pisləşməsinə gətirib çıxarırdı. Odur ki, İranın şimal ərazilərində faktiki olaraq Rusiya, cənub hissələrində isə Britaniyaya məxsus transmilli şirkətlərin təsir dairəsində idi.

Əsrin ortalarında Nəsrəddin şahın (1848-1851) sədr-əzəmi Mirzə Tağı xan Fərəhaninin (Əmir Kəbir) ölkəni düşmüş olduğu vəziyyətdən xilas etmək üçün hakimiyyəti mərkəzləşdirmək, müxtəlif dövlət institutlarında rüşvətxorluq və özbaşınalığın qarşısını almaq, iqtisadi vəziyyəti yaxşılaşdırmaq və xarici istehlak mallarından asılılığı azaltmaq, müharibələrdəki uğursuzluğun əsas səbəblərindən olan ordudakı hərbi-texniki geriliyi aradan qaldırmaq və onu yenidən qurmaq məqsədilə keçirdiyi modernləşdirmə islahatları da uğursuzluqla nəticələnmiş, özü isə ölkədən sürgün edilmişdi.

Bəhs edilən dövrdə İranda Böyük Britaniya və Rusiyaya münasibət, ümumiyyətlə, ölkəni mövcud vəziyyətdən çıxarılma yollarına baxışlar fərqli idi. Əgər Mirzə Tağı xan İranın inkişafının İngiltərə və Rusiyadan asılılığa son qoymaqla mümkün olduğunu düşünürdüsə, Mirzə Hüseyn xan Rusiyanın Mərkəzi Asiyada irəlilədiyi bir vaxtda İranın bütövlük və inkişafında İngiltərənin rolunun vacibliyini düşünürdü. “İranda Britaniya ilə dostluğa həvəs, səmimiyyət və sədaqət heç vaxt Mirzə Hüseyn xanın dövründə olduğu qədər çox olmamışdı” [Mohammad, 1941, s.217].

Mirzə Hüseyn xan İranda həyata keçirilməli olan iqtisadi layihələrdə ingilis kapitalının artırılmasının tərəfdarı kimi çıxış edir, bunun əksinə, rus kapitalının təhlükəli və yolverilməz olduğunu düşünürdü [İranın Kembric tarixi, 2008, VII cild, s.187]. O, hətta Nəsrəddin şahın xarici gördükdən sonra daha reformist düşüncələrə varacağı fikri ilə 1873-cü ildə onun Avropaya səfərini də təşkil etmişdi. 1880-cı ildə Qacar İranında Baş nazir postuna təyin olunan Mirzə Əli Əsgər xan Əmin-əl-Sultan da Britaniya maraqlarının qəti müdafiəçisi olmaqla rusları məyus edəcək bir siyasi xadim idi.

XIX əsrin II yarısında Böyük Britaniya və Rusiyanın xarici siyasətində İranla münasibətlərə baxış fərqli idi. Y.Serqeyevə görə “XIX əsrin II yarısında “anqlofobiya”dan əziyyət çəkən Rusiyanın hərbi-siyasi elitası İrana “Britaniyanın Rusiya Türküstanına və Qafqaza hücum etməsinə imkan verən cinah” kimi baxır, “iki böyük Asiya qonşusu – İran və Çin ilə münasibətləri qorumağı, İngiltərə ilə açıq müharibə halında onların ruslara qarşı olmasa da, heç olmasa, neytral qalmalarını təmin etməyə” çalışırdı [Serqeyev, 2012, s.104-105].

Bu dövrdə Britaniya siyasi dairələrində isə Rusiyanın Mərkəzi Asiyada uğurla irəlilədiyi dövrdə Asiya məsələlərində baxışa dair “Vaythol kursu” formalaşdı. (The Whitehall - Londonda rəsmi hökümət binalarının yerləşdiyi küçənin adıdır). Mahiyyəti “kompromis və hər qiymətə sülh” olan “Vaythol kursu”a görə Britaniya Rusiyaya qarşı balansı qorumaq üçün İranla münasibətlərə xüsusi önəm verməli, onun ərazi bötövlüyü və müstəqilliyinin qorunmasına çalışmalı idi [Serqeyev, 2012, s.118].

İngiltərə siyasi elitasında İrana münasibətdə fərqli baxışlar XIX əsrin 60-cı illərində də mövcud olmuşdur. Məsələn, bir qrup siyasilərin fikrinə görə:

*İran Hindistanın Rusiya və hər hansı digər güc üçün keçilməz olan xarici müdafiə xəttinə çevrilməlidir;* bunun üçün İrana münasibətdə əlverişli siyasət yeridilməli, ona yardım üçün maliyyə vəsaiti ayrılmalı, qoşunları üçün silah göndərilməli və hətta lazım gəldikdə, Herat və Mərvin də ona verilməsindən çəkinilməməlidir;

Başqa bir qrupun iddialarına görə *Britaniya Əfqanıstanın simasında Hindistanın şimal-qərbində güclü və dost bir dövlət yaratmağa təcili ehtiyac duyur* [Serqeyev, 2012, s.122].

“Böyük oyun”un XIX əsrin II yarısındakı gedişatına nəzər saldıqda ayıdn olur ki, Böyük Britaniya və Rusiyanın İranda siyasi, diplomatik fəaliyyəti onların şah hökumətindən konsessiya və borclar əldə etmək uğrunda mübarizələri ilə səciyyələnirdi. Təsadüfi deyil ki, rusiyalı tarixçi “Böyük oyun”u Asiya bazarlarında mal və kapital yarışı adlandırır [Serqeyev, 2012, s.130].

Beləliklə, Britaniya və Rusiyanın İranı nəzarətdə saxlama mexanizmlərindən biri ölkənin içində olduğu böhran vəziyyətindən çıxış yolları arayan şah hökumətinə müxtəlif layihələrin reallaşması üçün uzunmüddətli konsessiyalar verilməsinə təzyiq etmək idi.

**3.“Konsessiyalar müharibəsi”**

XIX əsrin 60-cı illərindən etibarən İranla normal münasibət tərəfdarlarının üstünlük qazanması ilə Britaniya hökuməti tərəfindən İranda infrastrukturun inkişafına investisiya qoyuluşuna başlandı. 1863-cü ildə Britaniya hökuməti polkovnik P.Stüartı İrandan Hindistana teleqraf xətti çəkməyin mümkün olub-olmadığını öyrənmək məqsədilə İrana göndərdi. Onun araşdırmalarından sonra gəlinən nəticələrə əsasən 1864-cü ilin sonlarında Böyük Britaniya ilə İran Qacar hökuməti arasında İran ərazisindən keçməklə Hindistandan Avropaya qədər uzanacaq teleqraf xətlərinin tikintisi və işlədilməsi ilə bağlı razılaşma əldə olundu. İmzalanan müqavilə ingilislərə Osmanlı ilə sərhəddə yerləşən Xanəgin şəhərindən Tehrana teleqraf xətti çəkmək və bu xətti Buşəhr limanınadək uzatmağa icazə verirdi. Xəttin inşası 1865-1866-cı illərdə tamamlandı [Markam, 2018, s.199]. Bu teleqraf xəttinin inşası strateji və siyasi əhəmiyyət daşıyaraq, Britaniyaya, həm Hindistan üzərində nəzarəti qorumaq, həm də ümumiyyətlə, Yaxın Şərqdə təsirini artırmaq imkanı verməklə, eyni zamanda onun İranın telekommunikasiya infrastrukturuna ilk dəfə müdaxiləsinin başlanğıcı hesab etmək olar.

1870-1871-ci illərdə Britaniyaya məxsus “Endeavour Telegraph Company” şirkəti Tehrandan Təbrizə və oradan Tiflis, Kerç, Varşava və Berlindən keçərək, Londona çatacaq daha bir teleqraf xəttinin inşasını həyata keçirdi. Ümumiyyətlə, həm İngiltərə, həm də Rusiya şirkətlərinin maraqlı olduğu sahələrdən biri İran ərazisində dəmir yol xətlərin çəkilməsi idi. Rusiya dəmiryolu vasitəsilə İran körfəzinə çıxmağa çalışırdısa, İngiltərə Xəzər sahillərinə və buradan Mərkəzi Asiya vasitəsilə Hindistana çatmağa çalışırdı. Şah hökuməti 1872-ci ildə Britaniyalı baron Yulius Reyterin Fars körfəzindən Xəzər sahillərinə qədər uzanacaq dəmiryol xətti çəkmək təklifini qəbul etdi və 1872-ci ildə ona bu hüququ verən konsessiyanı imzaladı. Elə həmin ildə 1872-ci ildə Reyter şahdan 70 il müddətinə bütün İran ərazisində magistral yollar çəkmək, neft-kəşfiyyatı işləri aparmaq, neft hasil etmək, meşə təsərrüfatı ilə məşğul olmaq, dəmiryolları və teleqraf xəttləri çəkmək, dəyirman və fabriklər tikmək, poçt şöbələri açmaq kimi mühüm hüquq və səlahiyyətlər verən konsessiya aldı.

Reytere belə böyük güzəşt verilməsi əsrin əvvəlləri və ortalarında İranla böyük xarici ticarət dövriyyəsi olan Rusiya üçün böyük iqtisadi təhdidlərə yol aça bilərdi. Odur ki, Rusiya 1873-cü ildə Nəsrdəddin şahın Sankt-Peterburqa səfəri zamanı “bu addımın Rusiyada təəssüf və təəccüb doğurduğunu” deməklə, nəinki narahatlığını ifadə etdi, hətta iki ölkə arasında münasibətlərin pisləşəcəyi ilə təhdid etdi. Nəsrəddin şah, görünür, bu təhdiddən

sonra Parisdə olarkən (1873-cü ildə Sankt-Peterburqdan ora getmişdi) aparılan ikitərəfli danışıqlarda Reyterin müqavilənin şərtlərini vaxtlı-vaxtında yerinə yetirmədiyini və ona verilən 15 aylıq müddətdə tikintini başa çatdırmadığını əsas gətirərək, Tehrana döndükdən sonra, həm də İranın daxilində Mirzə Məlkum xan başda olmaqla Rusiya tərəfindən də dəstəklənən bir qrup konsessiya əleyhdarlarının təzyiqi ilə - 1873-cü ildə konsessiyanı ləğv etdi və tikintiyə başlamaq mümkün olmadı [İranın Kembric tarixi, 2008, VII cild, s.187].

1880-cı ildə Qacar İranında Baş nazir postuna Britaniya maraqlarının qəti müdafiəçisi Mirzə Əli Əsgər xan Əmin-əl-Sultan təyin edildi. Onun vəzifəyə gəlməsi ilə ingilislərə müxtəlif konsessiyalar verilməsi məsələsi yenidən gündəmə gəldi. 1880-ci ilin əvvəllərində bəzi addımlar atıldı. 1888-ci ildə Britaniya Ser Henri Dramond Vulfu İrana göndərdi. Onun əsas missiyası İranda Britaniya mövqeyini gücləndirmək və şahdan yeni konsessiyalar alınmasına nail olmaq idi. Onun səylərinin nəticəsi olaraq 1888-ci ildə şah İranın cənubunda axan Harun çayını beynəlxalq nəqliyyat vasitələrinin keçidi üçün açdı ki, bu da Rusiyanın qəti narazılığına səbəb oldu. Çünki keçid imkanı ancaq Britaniyaya verilirdi. Onlar, hətta şah hökumətinə açıq etiraz ünvanlayaraq, Rusiyanın razılığı olmadan hansısa tərəfə nəqliyyat konsessiyası verilməli olmadığını bildirdi. Şah hökuməti isə cavabında “ölkənin öz daxili sularını xarici nəqliyyat üçün açmağın konsessiya vermək anlamına gəlmədiyini” bildirdi [İranın Kembric tarixi, 2008, VII cild, s.198]. Məhz Vulfun səyi ilə Reytera İran ərazisində banknotlar buraxmaq və mineral ehtiyatların istismarı üzrə müstəsna hüquqlar verən yeni konsessiya verildi, ingilislərin nəzarətində fəaliyyət göstərəcək “İmperial Bank of Persia” yaradıldı, ona mühüm səlahiyyətlər verildi.

Tarixən xarici siyasətində “parçala, hökm et” siyasətinə üstünlük verən Britaniya hökuməti İranda sərhəd xəttlərinnin demarkasiyası işində də iştirak etdi. 1870-1871-ci illərdə general Frederik Con Qoldsmitin rəhbərliyi ilə Britaniya nümayəndə heyəti Cənubi Bəlucistanın demarkasiyasını həyata keçirdi. 1872-ci ildə Sistan vilayətinin də sərhədləri müəyyən olundu və elə bir bölgü aparıldı ki, bu, sonralar İran və Əfqanıstan arasında sərhəd toqquşmalarına səbəb olacaqdı: Sistanın şimalında Hirmənd çayı, cənubda Sistan bəndindən İran-əfqan sərhədindəki Məlik Siyah dağınadək əfqan idarəçiliyində olan torpaqların bir hissəsi İrana ayrıldı, lakin onların suvarılma mənbələrinin çoxu əfqanlara verilən ərazilərdə qaldı. İranlılar Hirmənd çayının suyunun az hissəsindən istifadə edə bilərdilər və bu zaman da çox vaxt əfqanların yaratdığı çətinliklərlə üzləşirdilər [Mohammad, 1361, s.221].

1873-1896-cı illərdə dünya sənaye tarixində baş verən iqtisadi böhran – “Uzunmüddətli böhran” (“Long depression” (Dəmir yollarına və ağır sənayeyə həddindən artıq investisiya yatırılması, böyük bankların iflası, qızıl standartına bağlı sərt pul siyasəti səbəbindən yaranmış və qiymətlərin enməsi, yüksək işsizlik, xüsusilə sənaye bölgələrində zəif iqtisadi artım. tez-tez baş verən bank və şirkət iflasları ilə müşaiyət olunmuşdur)) Böyük Britaniyanın xarici ticarət əməliyyatlarına mənfi təsir göstərdi. Belə olduqda Britaniyanın mühafizəkar B.Dziraeli hökuməti Rusiyaya qarşı kəskin yol tutmağa başladı [Serqeyev, 2012, s.135-136]. 1887-ci ildə Ser Henri Vulf İrana göndərildi. Onun əsas missiyası İranın şimal-şərq sərhədlərində vəziyyətə nəzarət etmək və bu ərazilərdə Rusiya təsirinin yayılmasının qarşısını almaq, şahı siyasi dəyişikliklərə sövq etmək idi. Maraqlıdır ki, bəzi Britaniyalı müəlliflərin fikrincə, bu dövrdə Britaniya “rusun gücündən çox, hər şeydən əvvəl İranın zəifliyindən qorxurdu [Serqeyev, 2012, s.208].

Rus elçisi knyaz Dolqorukin ilə danışıqları zamanı H.Vulf ona şahı dəyişikliklərə sövq etmək üçün səyləri birləşdirməyi təklif edərək, bildirmişdi: “Bu ölkəni (İranı-F.K.) tərəqqi yoluna istiqamətləndirmək və onun resurslarının inkişaf etdirilməsinə nail olmaqla iki qonşu (Rusiya və Britaniya- F.K.) öz sərhədləri arasında neytral əraziyə sahib olar, İranın özü də onların dəstək və təsirindən faydalanar [Serqeyev, 2012, s.209]. Lakin H.Vulf Rusiyalı nümayəndəni inandıra bilməmişdi. 1889-da Nəsrəddin şahın Sankt-Peterburq və Londona

rəsmi səfəri də istənilən nəticəni vermədi. Səfər zamanı şah ingilislərə İran ərazisində kazino və qumar fəaliyyətinin təşkili hüququ verən konsessiyanı imzaladı. Hərçənd sonradan bu addım İranda qumarın Quranla qadağan olunduğunu əsas gətirən dini zümrənin narazılığına səbəb olduğu üçün şah konsessiyanı ləğv eməyə məcbur oldu.

1880-ci illərdə bir sıra yeniliklər oldu; 1889-u ilə Reyterin təşəbbüsü ilə “İran İmperiya Bankı” (“İmperial Bank of Persia”) açıldı; İngiltərəyə məxsus “Linc qardaşları” şirkəti Əhvaz-İsfahan şossesini salaraq Harun çayı üzərində gəmiçiliyə nəzarəti ələ keçirdilər; eyni zamanda Tehran-Qum-Sultanabad, Tehran-İsfahan şosse yollarını çəkmək hüququ aldılar. 1899-cu ildə Nəsrəddin şahın baş vəziri Mirza Ağa xan Nuri (Kitabçı xan) ingilislərin də dəstəyi ilə şahdan bütün neftli torpaqların istismarına dair inhisar hüququ aldı və həmin inhisar hüququnu 1901-ci ildə ingilis kapitalisti Vilyam Noks Darsiyə satdı.

1890-cı ildə Nəsrəddin şah məcburən Britaniya hökuməti qarşısında Rusiyaya İran ərazisində dəmir yolları çəkməyə icazə verməməyə, xarici ölkə təmsilçilərinə və şirkətlərinə konsessiyalar verməməyə dair öhdəlik götürdü. Elə həmin ilin martında Nəsrəddin şah Britaniyalı Talbota tarixə “Tütün konsessiyası” adı ilə düşən, İran ərazisində tütün istehsalı, satışı və ixracı hüququnun verilməsini nəzərdə tutan konsessiyanı imzaladı. Bu məsələ bir müddət İranda gizli saxlanılsa da ilin sonlarından “Əxtar” qəzetində konsessiyanı tənqid edən yazılar dərc olunmağa başlandı. 1891-ci ilin yazında isə ölkədə kütləvi etirazlar başladı. Rusiya tərəfindən dəstəklənən tacir və üləmaların iştirak etdiyi etiraz hərəkatı xüsusilə Təbrizdə kütləvi hal aldı, sonradan Məşhəd, İsfahan, Tehran kimi şəhərlərə də yayıldı. Tezliklə Nəsrəddin şah, nəinki onu ləğv etməyə məcbur oldu, hətta Talbota təzminat vermək üçün əvvəlcə Britaniya, sonra isə Rusiya şirkətlərinə də borclandı. Həmin ilin dekabrında tütün istehsalı və satışına qarşı böyük boykot kampaniyası başladı. Artıq 1892-ci ilin sonunda şah bütün konsessiyanı ləğv etdi [İvanov, 1977, s.268-269].

XIX əsrin ortalarından etibarən Rusiyanın Mərkəzi Asiyanın türk xanlıqlarına qarşı işğalçılıq siyasəti aktiv hal almağa başladı. Belə ki, əsrin əvvəllərində Cənubi Qafqazın işğalını başa çatdıraraq, öz mövqeyini gücləndirən, lakin əsrin ortalarında 1853-1856-cı illərdə Krım müharibəsində Böyük Britaniya, Fransa, Türkiyə qarşısında məğlubiyyətə düçar olaraq, “Avropa işlərindən uzaqlaşan” Rusiya artıq üzünü qərbə - Mərkəzi Asiyaya doğru çevirdi. Rusiyanın bölgədə hərbi üstünlüyü 1860-cı illərdən başladı, 1860-cı illərdə Daşkənd işğal edildi, 1867-ci ildə Türküstan general-qubernatorluğu yaradıldı; 1868-ci ildə rus ordusu Buxara və Səmərqəndi, 1873-cü ildə isə Xivə xanlığı işğal edildi [13].

Xəzərin cənub-qərb sərhədlərinin işğalı ilə Rusiya artıq İranın bilavasitə qonşusu oldu ki, bu, Rusiyaya həm iqtisadi, həm də siyasi məsələlərdə İranın daxili işlərinə qarışmaq imkanı verirdi. Bu baxımdan Nəsrəddin şahın 1878-ci ildə Rusiya səfəri zamanı əldə olunan razılıq əsasında 1879-cu ildə İranda “Kazak briqadası”nın yaradılması mühüm məsələ sayıla bilər. Birbaşa şahın təhlükəsizliyi məsələləri ilə məşğul olan “Kazak briqadası” eyni zamanda çar hökuməti tərəfindən şah hökumətinə böyük təzyiq vasitəsi idi.

1874-ci ildə isə Rusiya şah hökumətindən dəmiryolu çəkmək haqqında konsessiya alsa da İngiltərənin təzyiqləri səbəbindən planlarını reallaşdıra bilmədi. 1879-cu ildə ABŞ və İngiltərə şirkətlərinin bu sahədəki cəhdləri də baş tutmadı.

İstər Britaniya, istərsə də Rusiya şirkətlərinin maraqlı olduğu sahələrdən biri də İranda poçt-teqraf xəttlərinin çəkilməsi idi. Hindistanda 1867-1868-ci illərdə baş vermiş Sipahilər üsyanı İngiltərə üçün bu regionla əlaqələri təmin etmək üçün addımlar atmağın zəruriliyini üzə çıxarmışdı. Lakin bu məsələ Rusiya ilə razılaşdırılmış şəkildə həll olunmalı idi ki, İngiltərə buna 1867-ci ildə nail ola bildi. O, 1872-ci ildə İranı da London-Hindistan teleqraf xəttinin İrandan keçən hissəsinin çəkilməsinə razılaşmağa məcbur etdi. Bu xəttdən yalnız ingilislər istifadə edə bilərdilər, lakin Qacar hökuməti, həm teleqraf xəttinin çəkilməsi üçün

müəyyən olunmuş məbləği ödəməli, həm də onun saxlanması üçün hər il müəyyən miqdarda vəsait ayırmali idi.

1877-ci ildə İngiltərə Nəsrəddin şahdan daha bir poçt konsessiyası almağa nail oldu ki, bu, özündə 250 poçt idarəsi, 40 şöbə və 21 min km-lik teleqraf xəttini birləşdirən böyük bir layihə idi. Bir müddət sonra – 1879-cu ildə Rusiya da Qacar hökuməti ilə Astrabad-Çikişlər poçt-teleqraf xəttinin çəkilməsi haqqında müqavilə imzalamağa nail oldu.

Beləliklə, ingilis və rus şirkətləri İran hökumətə təzyiqlər edilməsi, təzyiq üsulu kimi şaha rəqib qruplaşmaların dəstəklənməsi, İranın vəziyyətini yaxşılığa doğru dəyişəcək və gücləndirəcək islahat cəhdlərinə maneələr törədilməsi kimi addımlarla şah hökumətindən aldıqları konsessiyalarla İranın iqtisadiyatı, ticarəti, gömrük rüsumları, hökumət bankları, ticarət yolları, poçt-teleqraf xətləri üzərində nəzarət hüququ qazandı və bu isə son nəticədə İranı ingilis mallarının ixrac və satış bazarına çevirdi, onu İngiltərə və Rusiyadan asılı, yarımmüstəmləkə vəziyyətinə saldı. İngilislərlə rəqabətə baxmayaraq, ruslar da İranda gəmiçilik, balıqçılıq müəssisələri, teleqraf xətləri və yol tikintisi sahəsində, həmçinin Sığorta və Nəqliyyat Şirkəti, İran Kredit Bankı kimi bir sıra iqtisadi müəssisələr yaratmağa müvəffəq oldular ki, bunların vasitəsilə İran şahına və hökumət üzvlərinə kreditlər verərək, onları iqtisadi asılılıq vəziyyətinə saldılar və bu yolla öz təsirini daha da genişləndirdilər.

**4.XIX əsrin II yarısında Rusiya-İran sərhədlərinin müəyyənləşdirilməsi**

İranı iqtisadi cəhətdən asılı vəziyyətə salmaq Britaniya və Rusiyaya ölkənin daxili məsələlərinə qarışmaq üçün də fürsət verirdi. Belə məsələlərdən biri ölkənin sərhədlərinin müəyyənləşdirilməsi idi.  Rusiya-İran sərhədlərinin müəyyənləşdirilməsi məqsədilə 1881-ci ildə Tehranda şah sarayında Rusiya və İran arasında Ahal-Xorasan sərhəd konvensiyası imzalandı. İki ölkə arasında sərhəd xətti Atrak çayı və şərqdə Kopetdağ dağ silsiləsi boyunca müəyyən edildi; Atrak və Mərv vadiləri "Rusiya Mərkəzi Asiyası" ilə İran Xorasanı arasında sərhəd oldu. Konvensiyaya görə Rusiya Qucan, Bocnurd, Məhəmmədabad kimi sərhəd şəhərlərinin rəhbərliyinə öz nümayəndələrini təyin edirdi. Konvensiyaya əlavə olaraq, 1883-cü ildə tərəflər arasında daha bir məxfi razılaşma əldə olundu ki, bu konvensiyaya görə Rusiyaya gələcəkdə Transxəzər bölgəsində ruslar üçün təhlükə yaranacağı təqdirdə onlar İran ərazisindən keçərək, lazımi əməliyyatlar apara bilərdilər.

1881-ci il konvensiyası iki tərəf arasında sərhədi müəyyən etsə də, Ahal-Təkə vadisinə qonşu torpaqlarda yaşayan türkmənlərin hansı tərəfə tabeçiliyi, habelə Ahal-Təkə və Mərv vadisi arasındakı torpaqların statusu kimi bir sıra məsələlər həll edilmədi. Mərvin türkmən hakimləri İranla birləşməyə daha meylli olsalar da, Rusiya hərbi güc vasitəsilə bunun qarşısını aldı [İvanov, 1977, s.10]. Bundan sonra 1884-cü ildə Mərv, 1885-ci ildə Səraxs və cənubi Türküstanın torpaqları Rusiyaya birləşdirildi. 1893-cü ildə Tehranda şah sarayında daha bir Rusiya-İran sərhəd konvensiyası imzalandı ki, bu konvensiya tarixdə „Ərazi mübadiləsi konvensiyası" adı ilə tanınır; İran 1881-ci il sərhəd xətti ilə Kənare dağlarından Bir silsiləsinin zirvəsinə qədər uzanan ərazini və Firuzə dairəsini, eləcə də ətraf əraziləri Rusiyaya güzəştə getdi, Rusiya isə Araz çayının sağ (cənub) sahilində, Abbasabadın qarşısında yerləşən kiçik bir ərazini, həmçinin Lütfabadın cənub-şərqində yerləşən Hisar kəndi və dairəsini İran dövlətinə verdi. Beləliklə, 1893-cü il konvensiyası Rusiya və İran imperiyaları arasında Mərkəzi Asiya torpaqları ilə bağlı imzalanmış son sərhəd sazişlərindən biri olmaqla, Xəzərdən şərqdə Rusiya–İran sərhədinin rəsmi şəkildə müəyyənləşdirilməsi məsələsini tamamlamış oldu.

Mərkəzi Asiyanın Rusiya tərəfindən işğalından sonra artıq Britaniya-Rusiya rəqabətində yeni dövr başladı. Böyük Britaniyanın baş naziri  Benjamin Dziraeli kraliça Viktoriyaya (1837-1901) məktubunda yazırdı: "*moskvalılar bizim qoşunlarımız tərəfindən Mərkəzi Asiyadan qovulmalı və  Xəzər dənizinə atılmalıdırlar*" [14]. Lakin İngiltərə Rusiyanı regiondan çıxarmaqla bağlı istəklərinə nail ola bilmədi və sonuncu ilə sərhədlərini

müəyyənləşdirmək üçün addımlar atdı; 1895-ci ildə tərəflər arasında imzalanan Pamir sərhəd protokollarına görə artıq regionun rus və ingilislərin nüfuz dairələrinə bölünməsi məsələsi təsdiqlənmiş oldu: əfqanlar Pənc çayının sağ sahilindəki torpaqlardan, Rusiya təsiri altında olan Buxara əmiri Amudərya çayının cənubundakı torpaqlardan geri çəkildi, bundan sonra ingilis-rus nüfuz dairələrinin sərhədi Pamir dağlarında Vaxan dəhlizi olaraq müəyyən edildi.

Rus-İran konvensiyasının imzalanmasından sonra İranın şimal ərazilərində Rusiyanın iqtisadi, siyasi və mədəni təsiri yayılmağa başladı. Rus-İran bankı yaradıldı. İran ərazisində dəmir yol xətlərinin çəkilməsi məsələsində İngiltərə amilini neytrallaşdırmağa çalışan Rusiya 1890-cı ildə Nəsrəddin şah ilə müqavilə imzalayaraq, onu İranda 10 il müddətində dəmiryolu çəkilməyəcəyi haqqında öhdəlik götürməyə məcbur etdi; 1900-cü ildə bu müqavilə daha 10 il müddətinə uzadıldı.

**5.Nəsrəddin şahın ölümündən sonra Rusiya-İran-Britaniya münasibətləri**

1896-cı ildə Nəsrəddin şahın sui-qəsd nəticəsində ölümü ilə İranda qarışıq vəziyyət yarandı. Kazak Briqadasının dəstəyi ilə hakimiyyətə yeni gələn Müzəffərəddin şahın dövründə (1896-1907) Rusiyanın yaranmış vəziyyətdən istifadə edərək, İranın daxili siyasət məsələləri üzərində təsiri də artdı. Xüsusilə Müzəffərəddin şahın 1902-ci ilin yayında Avropaya 10 milyon rubla başa gələn səfəri Rusiya bankından borc götürülmüş vəsait hesabına ödənmişdi ki, bu borcun qaytarılmaması da Rusiyaya şah hökumətinə təzyiq üçün alət olmuşdu [Kazımzadə, 1968, s.448]. Britaniya hakim dairələrində Rusiyanın tezliklə İrana qarşı ekspansiv planlarını reallaşdıracağı fikri də formalaşmışdı. Rusiya ilə bağlı narahatlığı 1899-cu ildə Hindistan vitse-kralı təyin edilən P.Hopkirkin təbirincə “rusafob” Lord Kerzon (Corc Nataniel Kerzon - 1899-1906-cı illərdə Hindistanın vitse-kralı, 1919-1926-cı illərdə Böyük Britaniyanın Xarici İşlər Naziri olmuşdur) daha açıq şəkildə dilə gətirirdi. “Biz yavaş-yavaş, hətta düşünürəm ki, sürətlə bu ölkədə (İranda – F.K.) təsirimizin tamamilə yox olmasına doğru irəliləyirik" - deyə narahatlığını ifadə edən Kerzon “Rusiya ambisiyalarının son məqsədinin bütün Asiyaya hakim olmaq”dan ibarət olduğunu iddia edir, Farsı, xüsusən də Fars körfəzi bölgəsini Rusiyanın qərbə doğru nüfuz etməsinə qarşı xüsusilə həssas bir ərazi kimi görürdü. 1899-cu ilin aprelində Hindistan işləri üzrə nazir Lord Hamiltona yazdığı məktubda “biz narahatıq ki, Hindistanı rusların quru hücumu təhlükəsindən qorumaq zərurətinə dəniz hücumu təhlükəsi də əlavə olunur” - yazan Kerzon Britaniyanın öz əldə etdiklərini müdafiə etməyə və hətta Rusiyanın kiçik müdaxilələrinə qarşı belə müqavimət göstərməyə borclu olduğu” fikrini müdafiə edirdi [Hopkirk, 2004, s.251].

Bütün bunlarla bərabər, 1899-cu ildə Britaniya hökumətinin İrandakı nümayəndə heyətinin rəhbəri Sesil Spring Rays Londona yazdığı məktubda “Rusiyanın başqa yerlərdə kifayət qədər qayğılarının mövcudluğu, öz ərazisinin də kifayət qədər böyük olduğu və İranı işğal etmək niyyətində olmadığı, sadəcə onun parçalanmasında və inkişafdan qalmasında maraqlı olduğunu” düşündüyünü yazırdı [Serqeyev, 2012, s.212]. Onun təxmini müəyyən qədər düzgün olsa da, 1901-1903-cü illərdə rusların Hindistana su yolu ilə - Fars körfəzi vasitəsilə yaxınlaşmaq cəhdləri aktivləşdi ki, bu, Britaniyanı narahat edirdi. 1903-cü ildə Rusiya-İran ticarət konvensiyasının imzalanması Rusiya-İran bankının yaradılması və hətta 1903-cü ilin oktyabrında “Şahənşah Bankı”nın emissiya hüquqlarının pozaraq, "bons de caisse" adlandırdığı pulu dövriyyəyə buraxması [Kazımzadə, 1968, s.465] bu narahatlığı artırdı. Çünki, İmperial Bankın meneceri Cozef Rabino Xarici İşlər Naziri Nəsrullah Xan Muşir-əd-Dövləyə etiraz ünvanlamış, 11 oktyabrda problemi müzakirə etmək üçün tərəflər arasında görüş keçirilsə də razılıq əldə olunmamışdı.

**6.1907-ci il İngiltərə-Rusiya konvensiyası**

İngilis-bur müharibəsinin də (1899-1902) getdiyi bir vaxtda Hindistanın təhlükəsizliyini qurudan başqa, həm də sudan təmin etmək Britaniya üçün çətin idi və çox vəsait tələb edirdi. Digər tərəfdən, Almaniyanın güclənməsi və Yaxın Şərq məsələlərində rolunun artması da Britaniya üçün Rusiya ilə rəqabəti arxa plana keçirirdi. Rusiyanın özü də daha irəli getmək imkanında deyildi. Çünki həm Yaponiya ilə müharibə aparır (1904-1905), həm də öz daxilində də 1905-ci il inqilabı baş vermiş və qarışıq bir vəziyyət yaranmışdı. Odur ki, hər iki tərəf danışıqlar vasitəsilə razılığa gəlinməsində maraqlı idilər.

Danışıqlar 1905-ci ildə başladı. 1905-1906-cı illərdə İranda Məşrutə inqilabının baş verməsi danışıqlar prosesini sürətləndirdi və nəhayət, 1907-ci ilin 31 avqustunda Sankt-Peterburqda Britaniya xarici siyasət ofisinin rəhbəri Ser Edvard Grey və Rusiya xarici işlər naziri Aleksandr İzvolski tərəfindən İran, Əfqanıstan və Tibetin Böyük Britaniya və Rusiyanın nüfuz dairələrinə bölünməsini nəzərdə tutan Konvensiya imzalandı. Baxmayaraq ki, 3 hissədən ibarət konvensiyanın "İrana aid saziş" adlanan hissəsinin preambulasında "Böyük Britaniya və Rusiya hökumətlərinin qarşılıqlı şəkildə İranın bütövlüyü və müstəqilliyini qorumaq haqqında razılığı" ifadə olunurdu, amma onun imzalanması İran hökuməti ilə razılaşdırılmamışdı. Preambulada, həmçinin tərəflərin "coğrafi və iqtisadi səbəblərə görə Rusiya sərhədinə yaxın və ya onunla sərhəd ərazilərdə, eləcə də Əfqanıstan və Bəlucistan torpaqlarına qonşu olan bəzi İran əyalətlərində sülh və nizamın qorunması və bu ərazilərdə hər hansı bir münaqişənin qarşısını almaqda maraqlı olduqları" vurğulanırdı.

Konvensiyanın I maddəsində qeyd olunurdu: Böyük Britaniya öz adına, habelə Britaniya təbəələri və ya üçüncü dövlətlərin təbəələrinin xeyrinə siyasi və ya kommersiya xarakterli heç bir imtiyaz - məsələn, dəmir yolları, banklar, teleqraflar xətləri, yollar, nəqliyyat, sığorta və s. üzrə imtiyazlar, - əldə etməmək və ya tələb etməmək öhdəliyini götürür və bu öhdəlik Qəsr-i-Şirindən başlayaraq İsfahan, Yəzd, Xalk şəhərlərindən keçərək, Rusiya və Əfqanıstan sərhədlərinin kəsişdiyi nöqtəyədək ərazidə tətbiq olunur; həmçinin Böyük Britaniya bu bölgədə Rusiya hökumətinə verilən oxşar imtiyazlara birbaşa və ya dolayı yolla qarşı çıxmamağı öhdəsinə götürür.

II maddəyə görə: Rusiya da öz növbəsində, özü, habelə Rusiya təbəələri və ya üçüncü dövlətlərin təbəələrinin xeyrinə siyasi və ya kommersiya xarakterli heç bir imtiyaz - məsələn, dəmir yolları, banklar, teleqraflar, yollar, nəqliyyat, sığorta və s. üzrə imtiyazlar, - əldə etməmək və ya tələb etməmək öhdəliyini götürür; bu öhdəlik Əfqanıstan sərhədindən başlayaraq Qazik, Bircənd, Kirman vasitəsilə keçərək, Bəndər-Abbasa qədər ərazidə tətbiq olunur; Rusiya bu bölgədə Böyük Britaniya hökumətinə verilən oxşar imtiyazlara birbaşa və ya dolayı yolla qarşı çıxmamağı öhdəsinə götürür.

Bu iki maddənin davamı olaraq, III maddədə "Rusiyanın da öz növbəsində, Böyük Britaniya ilə əvvəlcədən razılaşma olmadan, I və II maddələrdə göstərilən xətlər arasında yerləşən İran ərazilərində Britaniya təbəələrinə hər hansı imtiyazların verilməsinə qarşı çıxmamaq öhdəliyini götürdüyü" göstərilirdi.

Sonrakı maddədə Farsistan (İran-F.K.) və Fars körfəzinə aid olanlar istisna olmaqla, İranın bütün gömrük gəlirləri, Şah hökuməti tərəfindən bu sazişin imzalanmasına qədər "Banque d'escompte et des Prêts de Perse" ilə bağlanmış borcların amortizasiyası və faizlərinin ödənilməsini təmin edən gəlirlər kimi əvvəl olduğu kimi eyni məqsədə yönəldiləcəkdir; Farsistan və Fars körfəzinə aid İran gömrük gəlirləri, eləcə də Xəzər dənizinin İran sahillərindəki balıqçılıq gəlirləri və poçt və teleqraf gəlirləri, əvvəl olduğu kimi Şah hökuməti tərəfindən bu Sazişin imzalanmasına qədər "Imperial Bank of Persia" ilə bağlanmış borcların ödənilməsinə yönəldiləcəkdir.

Nəhayət, V maddəyə görə "Əgər bu Sazişin imzalanmasına qədər "Banque d'escompte et des Prêts de Perse" ("İran Eskont və Kredit Bankı") və "Imperial Bank of Persia" ("İran

İmperiya Bankı”) ilə bağlanmış İran borclarının amortizasiyası və ya faizlərinin ödənilməsində pozuntular baş verərsə və bu Sazişin II maddəsində göstərilən bölgədə birinci bankla bağlanmış borcların müntəzəm ödənilməsini təmin edən gəlir mənbələri üzərində Rusiyanın nəzarət qurması zərurəti yaranarsa, yaxud bu Sazişin I maddəsində göstərilən bölgədə ikinci bankla bağlanmış borcların müntəzəm ödənilməsini təmin edən gəlir mənbələri üzərində Böyük Britaniyanın nəzarət qurması zərurəti yaranarsa, Böyük Britaniya və Rusiya hökumətləri əvvəlcədən dostcasına fikir mübadiləsi aparmağı” öhdələrinə götürürdülər.

Konvensiyanın imzalanandıqdan sonra həm Britaniya Parlamentində, həm də Rusiyada ciddi müzakirələrə səbəb oldu. Böyük Britaniyada özündə bu konvensiyanın müddəalarına münasibət birmənalı deyildi və istər ölkə parlamentində, istərsə də mətbuatında açıq şəkildə müzakirələr gedirdi. Onun əsas tərəfdarlarından biri olan E.Greyə görə konvensiyanın imzalanması Rusiya ilə mövcud gərginliyi azaltmaqala bərabər, eyni zamanda Hindistan ətrafından da Rusiya təhlükəsini sövuşdurmuş olacaq. Konvensiyanın əleyhdarı kimi çıxış edən və parlament tərəfindən təsdiqlənməsinə maneələr yaradan Lord Kerzon 1908-ci ilin fevralında Lordlar Palatasında çıxışı zamanı “Rusiyanın bütün mübahisələri həqiqətən həll etmək istəyinin səmimiyyətinə inamsızlığını” bildirdi. O qeyd edirdi: “Təəssüflə də olsa, belə bir nəticəyə gəldim ki, son nəticə nə olursa olsun, biz bir əsrdən çox bir müddətdə diplomatiya və ticarətdə əldə etdiyimiz nailiyyətlərimizi böyük ölçüdə geri atdıq və mən bu müqavilənin İranla bağlı hissəsinin Hindistanın təhlükəsizliyini gücləndirəcəyinə, İranın müstəqilliyini təmin edəcəyinə və ya Asiyada sülhü qoruyacağına qətiyyən əmin deyiləm. Bu saziş Əfqanıstana münasibətdə şübhəli, Tibetə münasibətdə pis və İrana münasibətdə dəhşətlidir” [Çörçil, 1939, s.326]. Kerzonun qənaətinə görə Rusiya ilə bağlanmış müqavilə Britaniya hökumətinin son əsrdə uğrunda mübarizə apardığı hər şeyə xəyanət olmaqla, əvəzində ona heç nə vermədi. Britaniyalı siyasətçi konvensiyanın İran, Əfqanıstan və Çin xalqlarının gözündə “alçaldıcı” olduğunu və onun maddələrinin onların suveren hüquqlarını və ərazi bütövlüyünü pozaraq, Rusiya və Almaniyanın təcavüzünə yol açacağını bildirirdi. Hindistan vitse-kralı lord H.E.Minto, baş komandan General H.H.Kitçener və Hindistan hökumətinin üzvlərinin əksəriyyəti Rusiya-Britaniya müqaviləsini Racın (Hindistan-F.K) müdafiəsini sarsıdan sənəd adlandırırdı [Serqeyev, 2012, s.279].

Rusiya və İranda da sazişə münasibət baxımından fərqli fikirlər mövcud idi; A.İzvolski başda olmaqla tərəfdar qruplar bu sazişin Rusiyaya Asiyada öz təhlükəsizliyini təmin etməyə və bundan sonra yenidən Avropa məsələlərinə fokuslanmağa və ölkənin diplomatik mövqeyini gücləndirməyə imkan verəcəyini iddia edirdilərsə, İranda Konsttitusiya hərəkatının getdiyi bir dövrdə imzalanan saziş xalq arasında “ölkənin satılması”, “milli suverenliyə zərbə kimi” qarşılanırdı.

**7.Nəticə**

XIX əsrin II yarısında İngiltərə və Rusiya bir-birinə qarşı rəqabət şəraitində qüvvələr nisbətini balanslaşdırmaq üçün İranın formal müstəqilliyinin və bütövlüyünün saxlanılmasında maraqlı idi. Hər iki imperiya Qacar hökmdarları üzərində mümkün qədər çox təsir göstərməyə çalışır, hegemonluğa və rəqiblərinə qarşı üstünlük qazanmağa çalışırdı. Konsessiya ve kreditlər verilməsi yolu ilə İrana təsir göstərmək, onu iqtisadi cəhətdən asılı vəziyyətə salmaq siyasəti yeridilirdi. Odur ki, Rusiya və Böyük Britaniya arasında konsessiyalar uğrunda gedən gərgin rəqabət onların İrana kəskin iqtisadi müdaxilələrinə səbəb olmuş, sonuncunun dövlət borcları və xarici kapitaldan asılılığı artmış, iqtisadiyyatının balanslı inkişafı çətinləşmişdir. Bunun bariz nümunəsi İranın dəmir yolu tikintisinin bəhs edilən dövrdəki vəziyyəti idi. 1870-ci illərdən başlayaraq, həm Böyük Britaniya, həm də Rusiya İranın dövlət maraqlarını nəzərə almadan İran şahına təzyiq göstərərək, dəmir yolu konsessiyaları əldə etmiş, lakin biri-biri ilə apardıqları rəqabət

səbəbindən nə ruslara, nə də də ingililərə verilən konsessiyalarda nəzərdə tutulan layihələr reallaşmamış, son nəticədə İranda dəmir yolu tikintisi bir neçə xətt istisna olmaqla, uzun müddət moratorium altında qalmışdır.

Bunlarla bərabər, Nəsrəddin şahın hakimiyyəti dövründə istər mədəni, istərsə də ictimai-siyasi sahədə bir sıra yeniliklər də oldu; qərb ölkələri ilə əlaqələr bir sıra sahələrdə innovasiyalara imkan verdi, ilk Avropa tipli məktəb və klinikalar, ilk modern polis qüvvələri yaradıldı, poçt-teleqraf, bank və sığorta xidmətləri təşkil edildi.

1907-ci il sazişi XIX əsrin II yarısından başlamış İranın Rusiya və Britaniya təsir dairələrinə bölünməsi prosesini rəsmən təsdiqləmiş oldu. Konvensiyanın I və II maddələrinin də məzmunundan göründüyü kimi İranın şimal və mərkəzi əraziləri Rusiyanın, cənub-şərq regionları Britaniyanın təsir dairəsinə daxil edildi. Nəticədə İran Böyük Britaniya və Rusiyadan asılı vəziyyətə düşməklə, yarımmüstəmləkəyə çevrildi. Lakin, görünür, məhz ingilis-rus rəqabəti, bir tərəfdən digər Avropa güclərinin İrana ayaq açmasına imkan vermədi, digər tərəfdən də İranı müstəmləkəyə çevrilməkdən xilas edərək, öz müstəqilliyini və ərazi bütövlüyünü qoruyub saxlamağa imkan verdi.

1907-ci il ingilis-rus sazişi faktiki olaraq “Böyük oyun”un sonu olaraq qəbul edilir. Bu konvensiya nəinki Britaniya ilə Rusiya arasında hələ XVIII əsrin sonlarından başlayan rəqabətə son qoydu, tezliklə Böyük Britaniya, Fransa və Rusiyanın da daxil olduğu yeni bir ittifaq – Üçlər İttifaqının və ümümiyyətlə, Birinci Dünya Müharibəsi ərəfəsi beynəlxalq ittifaqlar sisteminin formalaşmasını da şərtləndirdi.

## 8.REFERENCES


1. Ivanov, M. S. (1977). *Essays on the History of Iran*. Moscow: Moscow State University Press. (in Russian)
2. Hopkirk, P. (2004). *The Great Game Against Russia: The Asian Syndrome*. Moscow. Retrieved from https://www.noravank.am/upload/Piter%20Xopkirk.pdf (in Russian)
3. Sergeev, E. Y. (2012). *The Great Game, 1856–1907: Myths and Realities of Russian-British Relations in Central and East Asia*. Moscow. Retrieved from https://psv4.userapi.com/s/v1/d/hH29vLk0vua07Pu3cpb36fH8fOIf6m-_Ida3Z1ZhChjXkVUw4Vtypqpt7Ca4RNHN3UwhPo98wxLjG_V_V2kyDFeJiDR0_oTrrhRR-rlXL_wSKryI/Sergeev_E_Yu_-_Bolshaya_igra_1856-1907_Sfera_Evrazii_-2012.pdf (in Russian)
4. Andreeva, E. D. (2007). *Russia and Iran in the Great Game: Travelogues and Orientalism*. London & New York: Routledge Taylor and Francis Group. Retrieved from https://psv4.userapi.com/s/v1/d/A2KdFAUwNt1HbLx-uQZvl97g67aIX8Gf9h3rwTwEs9Xbq5IM3x40JgkST82yVQ29WjHKEqXKM436DrTvXCtzrHdvIoZEYh3IL6VjyuFJ8zMcW_vQ/Russia_and_Iran_in_the_Great_Game_Travelogues_and_Orientalism.pdf (in English)
5. Ingram, E. (1980, April 2). Great Britain’s Great Game: An Introduction. *The International History Review*, 2, 160–171. Retrieved from https://pahar.in/pahar/Books%20and%20Articles/Indian%20Subcontinent/1980%20Great%20Britains%20Great%20Game--an%20introduction%20by%20Ingram%20from%20Intl%20Hist%20Rev%20v2%20s.pdf(in English)
6. Meyer, K. E., & Brysac, S. B. (1999). *Tournament of Shadows: The Great Game and the Race for Empire in Central Asia*. Washington DC. Retrieved from https://archive.org/details/dli.pahar.3713/page/n3/mode/2up (in English)

7. Kazemzadeh, F. (1968). *Russia and Great Britain in Persia, 1864–1914: A Study in Imperialism*. New Haven & London: Yale University Press. Retrieved from https://archive.org/details/russiabritaininp0000kaze/page/n17/mode/1up (in English)
8. Churcill, R. P. (1939). *The Anglo-Russian Convention of 1907*. Iowa: The Torch Press. Retrieved from https://archive.org/details/dli.pahar.2726/page/n1/mode/2up- (in English)
9. *The Cambridge History of Iran* (Vol. 7). (2008). Cambridge: Cambridge University Press. Retrieved from https://psv4.userapi.com/s/v1/d/RMQ8dBxczHCXfrIxQEv1jr1JoH3vNZnt0AOo_aWEOs5lR8bPXuhlMNzuxWmJj4C6ZDLO7pMRgTnfw3WRJMKFJUCGbyXvYfNLXF_QyAxKS4c1bD/The_Cambridge_History_of_Iran_Vol_7.pdf (in English)
10. Markham, C. (2018). *The History of Iran in the Qajar Period* (M. R. Farzaneh, Trans.). Tehran. (in Persian)
11. Mohammad, M. A. (1361 SH). *History of Iranian Diplomacy: From Pre-Achaemenid Times to the End of the Qajar Dynasty*. Tehran. (in Persian)
12. Andreeva, E. (January 6, 2014). *RUSSIA i. Russo-Iranian Relations up to the Bolshevik Revolution*. Retrieved from https://www.iranicaonline.org/articles/russia-i-relations/ (in English)
13. Office of the Historian. (1907). *Papers Relating to the Foreign Relations of the United States, With the Annual Message of the President Transmitted to Congress December 3, 1907, (In two parts), Part I*. Document 415. File No. 8570/5–8. Retrieved from https://history.state.gov/historicaldocuments/frus1907p1/d415 (in English)
14. Lillian Goldman Law Library (n.d.). *The Anglo-Russian Entente, 1907*. Retrieved from https://avalon.law.yale.edu/20th_century/angrusen.asp (in English)

## ƏDƏBİYYAT

1. Иванов, М. С. (1977). *Очерки истории Ирана*. Москва: Издательство МГУ.
2. Хопкирк, П. (2004). *Большая игра против России: Азиатский синдром*. Москва. Retrieved from https://www.noravank.am/upload/Piter%20Xopkirk.pdf
3. Сергеев, Е. Ю. (2012). *Большая игра, 1856–1907: мифы и реалии российско-британских отношений в Центральной и Восточной Азии*. Москва. Retrieved from https://psv4.userapi.com/s/v1/d/hH29vLk0vua07Pu3cpb36fH8fOIf6m-_Ida3Z1ZhChjXkVUw4Vtypqpt7Ca4RNHN3UwhPo98wxLjG_V_V2kyDFeJiDR0_oTrrhRR-rlXL_wSKryI/Sergeev_E_Yu_-_Bolshaya_igra_1856-1907_Sfera_Evrazii_-2012.pdf
4. Andreeva, E. (2007). *Russia and Iran in the Great Game: Travelogues and Orientalism*. London & New York: Routledge Taylor and Francis Group. Retrieved from https://psv4.userapi.com/s/v1/d/A2KdFAUwNt1HbLx-uQZvl97g67aIX8Gf9h3rwTwEs9Xbq5IM3x40JgkST82yVQ29WjHKEqXKM436DrTvXCtzrHdvIoZEYh3IL6VjyuFJ8zMcW_vQ/Russia_and_Iran_in_the_Great_Game_Travelogues_and_Orientalism.pdf
5. Ingram, E. (1980, April 2). Great Britain's Great Game: An Introduction. *The International History Review*, 2, 160–171. Retrieved from https://pahar.in/pahar/Books%20and%20Articles/Indian%20Subcontinent/1980%20Great%20Britains%20Great%20Game--an%20introduction%20by%20Ingram%20from%20Intl%20Hist%20Rev%20v2%20s.pdf
6. Meyer, K. E., & Brysac, S. B. (1999). *Tournament of Shadows: The Great Game and the Race for Empire in Central Asia*. Washington DC. Retrieved from https://archive.org/details/dli.pahar.3713/page/n3/mode/2up

**7.** Kazimzadeh, F. (1968). *Russia and Great Britain in Persia, 1864–1914: A Study in Imperialism*. New Haven & London: Yale University Press. Retrieved from https://archive.org/details/russiabritaininp0000kaze/page/n17/mode/1up
**8.** Churcill, R. P. (1939). *The Anglo-Russian Convention of 1907*. Iowa: The Torch Press. Retrieved from https://archive.org/details/dli.pahar.2726/page/n1/mode/2up-
**9.** *The Cambridge History of Iran* (2008). Vol. 7. Cambridge: Cambridge University Press. Retrieved from https://psv4.userapi.com/s/v1/d/RMQ8dBxczHCXfrIxQEv1jr1JoH3vNZnt0AOo_aWEOs5lR8bPXuhlMNzuxWmJj4C6ZDLO7pMRgTnfw3WRJMKFJUCGbyXvYfNLXF_QyAxKS4c1bD/The_Cambridge_History_of_Iran_Vol_7.pdf
**10.** مار کام، ک. (2018). *تاریخ ایران در دوره قاجار* (ترجمه میرزا رحیم فرزانه). تهران.
**11.** محمد. ع. م. (1361). *تاریخ دیپلماسی ایران: قبل از هخامنشیان تا پایان قاجاریه*. تهران.
**12.** Andreeva, E. (January 6, 2014). *RUSSIA i. Russo-Iranian Relations up to the Bolshevik Revolution*. Retrieved from https://www.iranicaonline.org/articles/russia-i-relations/
**13.** Office of the Historian. (1907). *Papers Relating to the Foreign Relations of the United States, With the Annual Message of the President Transmitted to Congress December 3, 1907, (In two parts), Part I*. Document 415. File No. 8570/5–8. Retrieved from https://history.state.gov/historicaldocuments/frus1907p1/d415
**14.** Lillian Goldman Law Library (n.d.). *The Anglo-Russian Entente, 1907*. Retrieved from https://avalon.law.yale.edu/20th_century/angrusen.asp